**Huseynova A.I.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.51-55**
**UDC: 343**

## Ku-Klux-Klan terrorist organization

**Abstract:** The specific aspects of the Ku Klux terrorist organization were touched upon in the article, as well as the history of that organization was investigated. During the analysis, attention was also paid to theoretical approaches. Proposals and recommendations were put forward as a result of researching various foreign literatures.

**Keywords:** racial terrorism; Ku Klux Klan; terrorism; KKK.

## References

1. Scheffler Thomas. Terrorism (2007).
2. Laats, Adam (2012). "Red Schoolhouse, Burning Cross: The Ku Klux Klan of the 1920s and Educational Reform". Available at: https://www.jstor.org/stable/23251451
3. McVeigh, Rory. "Structural Incentives for Conservative Mobilization: Power Devaluation and the Rise of the Ku Klux Klan, 1915–1925". Social Forces, Vol. 77, No. 4 (June 1999).
4. Du Bois, W.E.B. (1935). Black reconstruction in America 1860-1880. Simon and Schuster, 1998, 746 p. Available at: https://books.google.az/books?id=Nt5mgl DCNHEC&redir_esc=y
5. Cox, Major W. (March 2, 1999). "Justice Still Absent in Bridge Death"
6. Nelson, Jack. (1993). Terror in the Night: The Klan's Campaign Against the Jews. New York: Simon and Schuster. pp.208-211
7. https://www.elibrary.az/docs/jurnal/jrn2017_6.pdf

**Hüseynova A.İ.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.51-55**
**UOT: 343**

## Ku-Klux-Klan terror təşkilatı

**Xülasə:** Məqalədə ku-klux-klan terror təşkilatının spesifik cəhətlərinə toxunulmuş, eləcə də həmin təşkilatın tarixiaraşdırılmışdır. Təhlil zamanı həmçinin nəzəri yanaşmalara da diqqət ayrılmışdır. Müxtəlif xarici ədəbiyyatların araşdırılması nəticəsində təklif və tövsiyələr irəli sürülmüşdür.

**Açar sözlər:** irqi terrorizm; Ku-Klux-Klan; terror; KKK.

♦ **Huseynova Aydan Ilham -** Master's student of Baku State University Law Faculty specializing in "Transnational Criminal Law" (Azerbaijan). E-mail: aydan.huseynova13@gmail.com

♦ **Hüseynova Aydan İlham qızı -** Bakı Dövlət Universitetinin hüquq fakültəsinin "Transmilli cinayət hüququ" ixtisaslaşması üzrə magistrantı (Azərbaycan). E-mail: aydan.huseynova13@gmail.com

Terror aktları müxtəlif motivlərinə görə bir-birindən fərqlənir. Bu motivlər: dini, irqi, siyasi, iqtisadi, milli, sektant, sosial və digərləridir.

Dini terrorizm terrorizmin müəyyən dini məqsədlərə nail olmaq üçün strategiya kimi istifadə edildiyi dini zorakılıq növüdür [1].

Terrorun bu növündə əsas alət kimi insanların dini hislərindən istifadə olunur. Bu zaman əsasən bu aktı törədəcək şəxslərə müəyyən dairələr tərəfindən "şəhidlik", "cənnət", "günahlarının bağışlanması" və s. kimi vədlər verilir. Amma məsələyə düzgün yanaşsaq görərik ki, dünyada hegemon mövqedə olan 3 dinin heç birində günahsız insanlara qarşı terror törətməyə görə cənnət vəd edilmir. Dini motivli terror təşkilatına ən məşhur misal kimi İŞİD təşkilatının adını çəkə bilərik.

İrqi terrorizm mövcud irqi üstünlüyü qorumaq üçün müxtəlif sosial qruplar arasında baş verən mübarizənin nəticəsində yaranan və irqi ayrı-seçkilik yaradan terrorizmdir. Bu zaman əsas terror obyekti kimi dövlətin daxilində yaşayan irqi azlıqların nümayəndələri, irqi qruplar, onların birləşdiyi təşkilat seçilir [7, s.108].

İrqi motivli terror təşkilatlarından ən məşhurlarından biri də Ku-Klux-Klan təşkilatıdır.Ku-Klux-Klan (bundan sonra: KKK) təşkilatının tarixində zamanla dini və irqi motivlər dəyişib. Əvvəlcə, KKK əsasən müstəqil ştatların birliyi olan Konfederasiya dövründən sonra təsis edilib və əsasən müstəqil ştatlardakı Afroamerikalılara qarşı təxribat və siyasi nifrətə əsaslanırdı. İlk dövrlərində dini məsələlər də ön planda idi.

Lakin 1920-ci illərdə, KKK-nın aktivləri geniş bir əraziyə yayıldı və həmin dövrdə daha çox dini motivlərdən uzaq, daha çox sosial və siyasi məsələlərə nail oldu. Sonrakı dövrlərdə təşkilat dini və irqi motivləri birləşdirərək özünü təşkil edib hər ikisi ilə bağlı təxribata və nifrətə davam etdi.

Bu təşkilat Amerikan vətəndaş müharibəsindən sonrakı dövrdə təşəkkül tapmışdır. Qısaca, KKK və ya Klan adlandırılır. İrqçi əsasda qurulan klanın əsas hədəf qrupları qaradərili insanlar, yəhudilər, ispanlar, Amerikaya xaricdən gələnlər, müsəlmanlar olmuşdur [2]. Göründüyü kimi, təxmin edilənin əksinə irqi ideologiya ilə yanaşı qaçqın və köçkünlərə qarşı da ideologiyaları mövcud idi. Tarixdən bir-birindən müstəqil və fərqli dövrlərdə yaradılmış üç klan mövcud olmuşdur:

1) İlk klan 1865-1872-ci illərdə mövcud olmuşdur. Üzvlərinin dəqiq sayı bilinmir.

2) İkinci klan 1915-1944-cü illərdə mövcud olmuşdur. 3-6 milyon aralığında üzvlərinin olduğu təxmin edilir [3, s.1463].

3) Üçüncü klan 1946-cı ildə yaradılmış və hələ də varlığını davam etdirməkdədir. Üzvlərinin sayı 4000-8000 arasında olduğu təxmin edilir.

Adının etimologiyası ilə bağlı müxtəlif fikirlər olsa da, əsasən yunanca kyklos (κύκλος, yəni dairə) sözündən qaynaqlandığı düşünülür.Etimoloji cəhətdən o, qədim yunanca kyklos (dövr; Polibiyə görə, dövlət idarəçiliyinin siyasi dövrü: demokratiya, aristokratiya və monarxiya) və Şotlandiya/Uels sözlərindən klan (klon: ortaq əcdaddan olan fərdlərin icması, qəbilə). Klandakı "c" ku və klax-a bənzəmək üçün "k" ilə əvəz edilmişdir.

İlk klanın əsası 1865-ci ildə ABŞ-ın Tennessee əyalətinin Pulaski şəhərində Konfederasiya ordusunun 6 keçmiş zabiti tərəfindən qoyulmuşdur. Həmin zabitlərin adları: Frank McCord, Richard Reed, John Lester, John Kennedy, J. Calvin Jones, and James Crowe. Bu şəxslər Konfederasiya ordusunda xidmət etmiş şəxslər idi. Klan üzvlərinin xüsusi geyimləri də olmuşdur. Qurban vermə ayinləri zamanıağ rəngdə sadəcə gözləri açıqda olan və başı uzun şiş papaqlı üst geyimindən istifadə olunurdu. Bu geyimin əsas məqsədi həm insanlarda mistik maraq oyatmaq, həm dəhədəf qruplarını qorxutmaq idi. İlk klanın əsas aktları azad edilmiş qaradərili qulları əvvəlki

sahiblərinə qaytarmaq, aktiv qaradərili siyasətçiləri siyasətdən uzaqlaşdırmaq və bu məqsədlərə çatmaq üçün bütün vasitələrdən, hətta qətldən belə istifadə etmək idi.

Du Boisin 1935-ci ildə yazdığı "Black Reconstruction of America" kitabında klan üzvlərinin törətdikləri cinayətlərdən birini qeydedir:"Silahlı partizan müharibəsi minlərlə zəncini öldürdü; siyasi iğtişaşlar təşkil edildi; onların səbəbləri və ya halları həmişə qaranlıq idi, nəticələri həmişə müəyyən idi. Maskalı adamlar evlərə atəş açaraq onları yandırırdılar, hətta sakinlər içəridə olsalar belə… Onlar maddi imkanları yaxşı olan qaradərili fermerləri evlərindən qovdular. Ümumiyyətlə, Şimali və Cənubi Karolina ştatlarında 1867-ci ilin iyununda başa çatan 18 ayda 197 qətl və 548 ağır hücum hadisəsi olduğunu bildirmək olar" [4].

1870-ci ildə Ali Məhkəmə təşkilatı terror təşkilatı olaraq tanıdı. Klan üzvləri aktiv fəaliyyət göstərsələr də, təşkilatın düzgün strukturunun olmaması və hakimiyyət orqanlarının onlara qarşı apardığı mübarizə nəticəsində dağılmışdır.

İkinci klanın əsası 1915-ci ildə Georgia ştatında qoyulmuşdur. Bu dəfə üzvlərinə aylıq maaş verməklə, həmçinin öz geyimlərinin və başqa simvollarının da satışı ilə müəyyən qədər şöhrət və pul qazana bilmişlər, hətta özlərinə məxsus mərkəzi binaları da var idi. Ona görə də, ən çox üzv sayına çatdıqları dövrdə bu dövr olmuşdur.

Üçüncü klan İkinci Dünya Müharibəsindən sonra qurulmuşdur. Lakin bu dövrdə bir çox yeni klanlar peyda olduğu və hər biri də əsas klan olmağa iddialı olduğu üçün bu dövr haqqında geniş məlumatlar mövcud deyil [3]. Amma bu dövrdə də klan öz cinayətlərindən geri qalmamışdır.

- 1950 və 1960-cı illərdə Klan üzvləri tərəfindən törədilən daha bədnam cinayətlər arasında:
- 1957-ci ildə Klan tərəfindən Alabama çayına körpüdən atlanaraq ölümünə məcbur edilən kiçik Villi Edvardsın qətli [5].
- 1963-cü ildə Missisipidə NAACP təşkilatçısı Medqar Eversə sui-qəsd.
- 1963-cü ilin sentyabrında Alabama ştatının Birmingem şəhərində dörd afroamerikalı qızın ölümünə və 22 nəfərin yaralanmasına səbəb olan 16-cı Küçə Baptist Kilsəsi partlayışı. Cinayəti törədənlər 1977-ci ildə məhkum olunmuş Klan üzvləri Robert Çambliss, 2001 və 2002-ci illərdə məhkum edilmiş Thomas Edwin Blanton və Bobby Frank Cherry idi. Dördüncü şübhəli Herman Cash, ittiham irəli sürülməzdən əvvəl öldü.
- 1964-cü ildə Missisipidə üç mülki hüquq işçisi olan Chaney, Goodman və Schwernerin qətli.
- 1964-cü ildə Missisipidə iki qaradərili yeniyetmə Henry Hezekiah Dee və Charles Eddie Moore-un qətli.
- 1965-ci ildə Alabamada Viola Liuzzonun qətli.
- 1966-cı ilin iyulunda Klan fəaliyyətinin qalası olan Luiziana ştatının Boqalusa şəhərində Klarens Triqqs öldürülmüş halda tapıldı.
- 1967-ci ildə Missisipi ştatının Cekson şəhərində metodist aktivist Robert Kochtitzkinin iqamətgahında, sinaqoqda və ravvin Perri Nusbaumun iqamətgahında çoxsaylı partlayışlar [6].

3-cü dirilişin yatırılmasına səbəb kimi 1981-ci ildə linç edilən 19 yaşlı Michael Donaldın anasının klanı məhkəməyə verməyi olmuşdur. Belə ki, dövlətin bu hadisəyə qədərklanın rasist fəaliyyətini araşdırmaq"ağlına gəlməmişdir". KKK-ın 3-cü dönəmində sayısı 10 minə çatmışdı. Michaelin öldürüldüyü küçənin adı 2006-cı ildə onun şərəfinə M.Donald Avenue adlandırıldı. Amerikada yenə özünü KKK-çı elan edən insanlar mövcuddur.

Yekun olaraq onu deyə bilərik ki, ekstremist fikirlər hər zaman cəmiyyətin normal inkişafının qarşısını almış və insanlar arasında nifaq salmışdır. Buna görə də istər dini, istərsə də irqçi

düşüncələrə qarşı hər zaman mübarizə aparmaq lazımdır. Belə fikirlərə aludə olmaq qətiyyən yolverilməzdir. Çünkü bizim həm dini, həm də milli əsaslarımızda bu tip fikirlərə yer yoxdur.

Yekun olaraq onu deyə bilərik ki, ekstremist fikirlər hər zaman cəmiyyətin normal inkişafının qarşısını almış və insanlar arasında nifaq salmışdır. Buna görə də istər dini, istərsə də irqçi düşüncələrə qarşı hər zaman mübarizə aparmaq lazımdır. Belə fikirlərə aludə olmaq qətiyyən yolverilməzdir. Çünkü bizim həm dini, həm də milli əsaslarımızda bu tip fikirlərə yer yoxdur.

## Biblioqrafiya

1. Scheffler Thomas. Terrorism (2007).

2. Laats, Adam (2012). "Red Schoolhouse, Burning Cross: The Ku Klux Klan of the 1920s and Educational Reform" [Elektron resurs]. URL: https://www.jstor.org/stable/23251451

3. McVeigh, Rory. "Structural Incentives for Conservative Mobilization: Power Devaluation and the Rise of the Ku Klux Klan, 1915–1925". Social Forces, Vol. 77, No. 4 (June 1999).

4. Du Bois, W.E.B. (1935). Black reconstruction in America 1860-1880. Simon and Schuster, 1998, 746 p. [Elektron resurs]. URL: https://books.google.az/books?id=Nt5mgl DCNHEC&redir_esc=y

5. Cox, Major W. (March 2, 1999). "Justice Still Absent in Bridge Death"

6. Nelson, Jack. (1993). Terror in the Night: The Klan's Campaign Against the Jews. New York: Simon and Schuster. səh.208-211

7. https://www.elibrary.az/docs/jurnal/jrn2017_6.pdf

**Гусейнова А.И.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.51-55**
**УДК: 343**

## Ку-Кукс-Клан террористическая организация

**Аннотация:** Затрагиваются конкретные аспекты террористической организации Ку-клукс-клан, а также исследована история этой организации. В ходе анализа также было уделено внимание теоретическим подходам. Предложения и рекомендации были выдвинуты в результате исследования различной зарубежной литературы.

**Ключевые слова:** расовый терроризм; Ку-клукс-клан; терроризм; ККК.

## Библиография

1. Scheffler Thomas. Terrorism (2007).

♦ **Гусейнова Айдан Ильхам кызы** – магистрант юридического факультета Бакинского государственного университета по специальности «Транснациональное уголовное право» (Азербайджан). E-mail: aydan.huseynova13@gmail.com

2. Laats, Adam (2012). "Red Schoolhouse, Burning Cross: The Ku Klux Klan of the 1920s and Educational Reform”. Available at: https://www.jstor.org/stable/23251451

3. McVeigh, Rory. "Structural Incentives for Conservative Mobilization: Power Devaluation and the Rise of the Ku Klux Klan, 1915–1925". Social Forces, Vol. 77, No. 4 (June 1999).

4. Du Bois, W.E.B. (1935). Black reconstruction in America 1860-1880. Simon and Schuster, 1998, 746 p. Available at: https://books.google.az/books?id=Nt5mgl DCNHEC&redir_esc=y

5. Cox, Major W. (March 2, 1999). "Justice Still Absent in Bridge Death"

6. Nelson, Jack. (1993). Terror in the Night: The Klan's Campaign Against the Jews. New York: Simon and Schuster. pp.208-211

7. https://www.elibrary.az/docs/jurnal/jrn2017_6.pdf